AZƏRBAYCAN RESPUBLİKASI

MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI

ELMİ-METODİKA ŞÖBƏSİ



Xalq şairi Məmməd Arazın 80 illik yubileyi münasibətilə

# “Şairlər Tanrının Zərrələridir”

(metodiki vəsait)

B A K I – 2013

**Redaktor:** **Şəhla Qəmbərova - F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru**

**Tərtibçi:** **Könül Səmədzadə - F.Köçərli adına Respublika Uşaq Kitabxanası Elmi metodika şöbəsinin baş kitabxanaçısı**

**Korrektor:** **Ruhiyyə Məmmədli - F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi-metodika şöbəsinin müdiri**

**Məmməd Araz yaradıcılığının 80 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2013-cü ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, xalq şairi, Dövlət mükafatı laureatı Məmməd Arazın (Məmməd İnfil oğlu İbrahimovun) anadan olmasının 80 illiyi tamam olur.

Vətənpərvərlik duyğuları ilə zəngin Məmməd Araz yaradıcılığı Azərbaycan poeziyasının parlaq səhifələrindən birini təşkil edir. Şairin yüksək bədii-fəlsəfi ümumiləşdirmələrlə səciyyələnən, lakonik deyim tərzinə malik dərin ictimai məzmunlu lirikası gücünü vətən təbiətinin gözəlliklərindən, böyük tarixi keçmişimizdən və milli ədəbi fikrin tükənməz xəzinəsindən almışdır. Ana dilinin bütün incəliklərini özündə toplamış bu poetik irs gəncliyin mədəni-mənəvi dəyərlərə ehtiram ruhunda formalaşdırılması baxımından müstəsna əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ədəbiyyatın inkişafına mühüm töhvələr vermiş xalq şairi Məmməd Arazın 80 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, xalq şairi Məmməd Arazın 80 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 27 sentyabr 2013-cü il

## Tərtibçidən

Tanrı insanlara sözünü peyğəmbərlər vasitəsilə çatdırıb. Yer üzünə müqəddəs kitablar göndərib. Tanrının insanlara deyəcəyi sözlər o qədər çoxdur ki, onları bir neçə müqəddəs kitabda cəmləşdirmək mümkün deyil. Şairlər Tanrının zərrələridir. Tanrı öz zərrələrini Yer üzünə ona görə göndərdi ki, bizə, yəni insanlara deyiləsi sözlərini həmin zərrələrinin vasitəsilə desin. Yəni şairlər peyğəmbərlərdən sonra peyğəmbərlərin missiyasını yerinə yetirirlər.

Tanrı belə bir missiyanı Məmməd Arazın da üzərinə qoyub. Məmməd Araz vəhylə Tanrıdan qəbul elədiyi sözləri, fikirləri insanlara çatdırır. Homerdən başlamış bu günə qədər Yer üzünə minlərlə şair gəlib. Hamısı da insanlara sevgi aşılayıb, məhəbbət aşılayıb, qısası, sözün böyük mənasında insanlıq aşılayıb. Dünyanı peyğəmbərlərsiz təsəvvür eləmək mümkün olmadığı kimi, şairlərsiz də təsəvvür eləmək mümkün deyil. Hər bir şair də tanrının ona bəxş etdiyi qüdrət səviyyəsində bəşəriyyətə sözünü deyə bilib. Təbii ki, Tanrının da peyğəmbərlərin içində daha çox sevdikləri olub, eləcə də şairlərin içində daha çox sevdikləri var. Məmməd Arazın bəxti onda gətirib ki, o, Tanrının daha çox sevdiyi şairlərin sırasındadır.

# I Bölmə:

## Həyat və yaradıcılığı:

*Ürəyimsiz kəlmə kəsən deyiləm,*
*Nə qədər ki, öz əlimdi yazanım.*
*Xalq şairi*
*Məmməd Araz*

Sağlığında böyük vətəndaşlıq duyğusu ilə "Mənim könlüm bu torpağı vəsf eyləyərək Azərbaycan dünyasından baxar dünyaya" bəyanı ilə səslənərdi yer üzünə ustad Məmməd Araz.

İndi bu səslənişə hər bir Azərbaycan vətəndaşının "Mənim könlüm bu dünyanı vəsf eləyərək Məmməd Araz dünyasından baxar dünyaya" qədirbilənliyi də qatılıb.

Dünyadan cismani gedişi canı-qanı qədər sevdiyi soydaşlarına "Mən sənə bir kövrək, yaddaşı möhkəm vəfalı xatirə bağışlayıram" ismarıcıyla, əslində yaşamaq duyğusuyla baş-başa oldu.

Cismani ölümündən sonra ikinci, əbədi ömrü başladı ustad sənətkarın. Bircə an da olsun üsyankar, eyni dərəcədə də həzin poeziyası dilimizdən düşmədi, bu poeziya efirdən, radio dalğalarından, dost söhbətlərindən, sevgi etiraflarından dönə-dönə keçdi duyğularımızı çıraqban etdi. Sağlığında ömür, yaşam yolunun sərhədlərini "gün-doğandan günbatana mənzilim" –deyən Məmməd Araz ömrü boyu "Şöhrət azarına tutulanları şöhrətin özü də yaşada bilməz" qənaətinin böyük həqiqətilə baş-başa yazıb yaratdı, "Ürəyimsiz kəlmə yazan deyiləm-nə qədər ki, öz əlimdir yazanım" əhdinə xilaf çıxmadı.

***Zirvədəki əl çatmayan qala mən,***
***Ətəkdəki sinə, cığır, tala mən.***
***Xudafərin harayından qalan mən,***
***Bu da belə bir ömürdü yaşadım.***

Sağlığında özünə nüfuzlu yer tapmış Məmməd Araz dünya ədəbiyyatı nümayəndələrinin sırasında əzəmətlə dayanan, poeziyasında bütün planetlərin rəngi görünən, təkcə öz millətinin deyil, bəşər övladının söz ustasıdır. O, bu halal haqqı fəlsəfi mənası, dərinliyi, əfsunluğu ilə seçilən poeziyası ilə qazanmışdır. Məmməd Araz poeziyası onun bütün pərəstişkarları üçün mənəvi işıq və mənəviyyat dərsidir. Bu şairin ürəyimizdə əbədi həkk olunmuş qəribə bir portreti var. Hər dəfə onun haqqında fikirləşəndə, istər-istəməz aşağıdakı misralar dilimizdə pıçıltıya dönür:

*Məni şeirimdə gəz bir insan kimi,*
*Qəlbimdə nə varsa ona demişəm.*
*Anadan, bacıdan gizlətdiyimi*
*Kağızdan-qələmdən gizlətməmişəm.*

Azərbaycanımızın görkəmli xalq şairi Məmməd Araz mənalı, keşməkeşli və şərəfli, bütövlükdə Vətənə və sənətə həsr olunmuş əsl şair-vətəndaş ömrü yaşadı.

Sənətkarın tərcümeyi-halı, taleyi və həyatı daha çox onun yaradıcılığında öz əksini tapır. Bunu xalq şairi Məmməd Araz özü də etiraf edir.

Öz yaradıcılığının əsas qəhrəmanı, aparıcısı olan, düşündüklərini, yaşadıqlarını yazan Məmməd Arazın əsərləri həqiqi bir şair ömrünün mənalı və pozulmaz səhifələridir. Bir çox istedadlı şairlər kimi, Məmməd Arazın əsərləri də onun ibrətamiz həyat dastanı, mənalı ömürnaməsidir.

Xalq şairi Məmməd Arazın uşaqlıq və ilk gənclik illəri (1933-1950) Naxçıvan diyarında keçmişdir. Şahbuz dağlarının saf ab-havası, səfalı Batabat yaylağının, Salvartının, Cadırdaş obasının axar-baxarı Məmməd Arazın ruhuna hopmuşdur. O, həyatının sonrakı çətin dövrlərini, sənətin eniş-yoxuşlarını daim sinəsində hifz etdiyi həmin "dağ havası" ilə uğurla keçə bilmişdir.

Müasir Azərbaycan ədəbiyyatında görkəmli milli şairlərdən biri kimi geniş şöhrət qazanmış Məmməd Araz ulu babalardan qoruna-qoruna gəlmiş, həmişə "çırpısı tətikdə, odunu dəmdə" olan, əli qabarlı tipik bir azərbaycanlı ailəsində böyüyüb tərbiyə almışdır. Onun milli ruhlu şair-vətəndaş kimi formalaşmasında "Çadırdaş ətəyi, Nursu bulağı" ndan başlamış "qaynar bulaqları qanında qaynayan" şəfalı Şahbuz, "ürəyinin bir parçası" saydığı doğma Naxçıvan, habelə bütün Azərbaycanı əhatə edən ictimai-coğrafi mühit və ədəbi iqlim fəal iştirakçı olmuşdur. Bununla belə, Məmməd Arazın ata ocağı sözün həqiqi mənasında bütöv bir xalqı və böyük bir vətəni təmsil edən ümumiləşmiş Azərbaycan ocağıdır. Şair nəsillərdən-nəsillərə keçib gəlmiş bu tarixi ocağın layiqli varisi, etibarlı odqoruyanıdır.

Bəli, 14 oktyabr xalq şairi Məmməd Arazın doğum günüdür. Əlinə qələm aldığı gündən Vətən gözəlliklərinə nəğmə qoşan, onun dərdini, ağrı-acılarını ürəyindən keçirərək misra-misra şeirlərində əks etdirən unudulmaz şair Azərbaycan poeziyasının xan çinarı idi. Əbədi ayrılığın qüssəsi Məmməd Araz yaradıcılığını sevənləri xiffətləndirsə də, onun əbədiyaşar poeziyası həmişə bizimlədir. Özünün təbirincə desək, nə qədər ki, ana torpaq var, səhər Günəş doğur, gecələr Ay parlayır, ulduzlar yanır, sərhəd dirəklərinin altında nər biləkli oğullar yurdun keşiyini çəkir, deməli, Məmməd Araz da var, onun şeirləri də yaşayır. Bu doğum günündə şairi yad etməyin ən yaxşı yolu onun yaradıcılığına bir daha müraciət etməkdir.

Sevimli şairimiz Məmməd Arazın 80 illik yubileyi münasibətilə bu il respublikamızın bir çox təhsil ocaqlarında, məktəblərdə, lisey və gimnaziyalarda, kitabxanalarda və s. yerlərdə tədbirlər planı hazırlanmışdır. Belə bir tədbirlər planı F. Köçərli adına Respublika Uşaq Kitabxanasında da hazırlanmışdır. Tədbirlər planına bir çox oxucu kütləsinin sorğularını ödəmək məqsədilə M.Arazın əsərlərindən, onun həyat və yaradıcılığına dair ədəbiyyatlardan, dövrü mətbuatda nəşr olunan materialların kartotekasından və bir də şairin həyat albomundan hazırlanmış fotolardan sərgi təşkil olunmalıdır. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn, "Söz ustadı", "İşıqlı poeziya", "Bir şair vardı...", "Heyrətləndirən şair", "Məmməd Araz poeziyasında", "Dünya sənin, dünya mənim, dünya heç kimin", Gözəlliyi, kamilliyə səsləyən poeziya", " Məmməd Araz - 80" və s. İndi isə Məmməd Araz - 80 adlı sərginin nümunəsini veririk.

1. Başlıq.

**"Məmməd Araz-80".**

2. Məmməd Arazın portreti




3. Görkəmli insanların Məmməd Araz haqqında söylədikləri sitatlar.
4. Kitablarının nümayişi.
5. Dövrü mətbuatda nəşr olunan məqalələrin kartotekası.
6. Ailə albomundan şəkillərin nümayişi.

Sitatlar:

1. "Sözü həddindən artıq obrazla yükləmək, bədii deyiminin kvadratını kəşf etməyə can atmaq, bəzən onun səmimilik, təbiilik deyilən keyfiyyətlərinə xələl gətirir".

Məmməd Araz
Xalq şairi

2. Xalq şairi Məmməd Araz dövrümüzün sənət zirvəsində durur.

Heydər Əliyev
Ulu öndər

7. Məmməd Araz öz sifəti, öz görünüşü, öz mövzuları, öz yazı manerası olan şairdir. Onun imzası elə kitablarının adı olmağa layiqdir.

Bəxtiyar Vahabzadə
Xalq şairi

8. Məmməd Araz poeziyasının məhvəri Vətən eşqi, vətəndaşlıq amalı, dünya haqqında, kürreyi-ərzimiz haqqında həm nikbin, həm nigaran qənaətlərdir.

Anar
Xalq yazıçısı

9. Məmməd Araz şeiri-sözün ictimai gücə çevrilmək nümunəsidir. Məmməd Araz şeiri təzə qan kimi oxucuların damarına vurulur.

Sabir Rüstəmxanlı
Xalq şairi

10. Məmməd Araz öz taleyini xalqın taleyinə möhkəm bağladığına görə əbədidir, dərindir, əvəzsizdir.

Qulu Xəlilov
Əməkdar elm xadimi, professor

11. Biz, Güney Azərbaycanlıları xalq şairi Məmməd Arazı hər iki Azərbaycanın qardaş şairi kimi tanıyırıq.

Doktor
Cavad Heyət

12. Məmməd Araz yığcam şeir ustasıdır. Onun sözçülüklə işi yoxdur. Şair fikri kəsə deməyin, az sözlə mükəmməl poetik qənaət ifadə etməyin tutarlı nümunələrini yaratmışdır...

Bəkir Nəbiyev
Əməkdar elm xadimi, akademik

# Kitablarının nümayişi:



























**“Məmməd Araz şanlı dünənimizin, uğurlu bu günümüzün və inamlı gələcəyimizin şairidir”.**

# Ailə albomundan...






















Cağdaş Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən olan xalq şairi Məmməd Arazın keşməkeşli və şərəfli ömür yoluna bir daha nəzər salmaq üçün kitabxanada bir sıra təbdirlərin keçirilməsi məqsədəuyğundur. F. Köçərli adına Respublika Uşaq Kitabxanasında Məmməd Araz yubileyi ilə bağlı kitab müzakirəsinin, oxucu konfransının, şeir müsabiqəsinin, sual-cavab gecəsinin, ədəbi-bədii gecənin keçirilməsi vacibdir. İndi isə yuxarı və orta yaş qrup oxucular arasında keçirilən **“Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı!”** adlı sual-cavab gecəsinin nümunəsini veririk. Ən əvvəl kitabxanaçı Məmməd Araz yaradıcılığından oxuculara bir qədər məlumat verir.

Əziz oxucular! Səksən il bundan əvvəl Şahbuzun Nurs kəndində, el-obada xüsusi hörmət və ehtiram sahibi olan İnfil kişinin ailəsində Məmməd adlı qarabuğdayı, qaragözlü, çəlimsiz bir uşaq dünyaya göz açanda atası və anası bəlkə də heç xəyallarına belə gətirmədilər ki, o, böyüyüb şair olacaq. Amma, sən demə, həmin bu uşaq Azərbaycanın ən görkəmli şairlərindən biri Məmməd Araz olmaq üçün Allah vergisiylə doğulubmuş. İllər keçdi. Atası da, anası da indi çox dəbdə olan heç bir plan, yaxud proqram tərtib etmədən, sadəcə valideynlik vəzifələrini yerinə yetirərək, hərşeyi öyrənmək, bilmək istəyən, xalq deyimlərinə heyran-heyran qulaq asan, eşitdiklərini beynində, ürəyində hifz edən balaca Məmmədin qarşısında sinə dəftərini səxavətlə açdılar, özləri də bilmədən onun məhz bir şair

kimi yetişməsinə zəmin yaratdılar. İndi isə Məmməd Araz haqqında hazırladığımız suallarla tanış olaq.

1. Məmməd Araz  nə vaxt və harada anadan olmuşdur?
2. Araz şairi deyəndə nə başa düşürsünüz?
3. Məmməd Araz yaradıcılığının özünəməxsusluğu nədən ibarətdir?
4. Vətən mənə oğul desə, nə dərdim,
   Mamır olub qayasında bitərdim  deyəndə nə başa düşürsüz?

Sonda Öz fəallığına görə fərqlənən oxucular kitabxana tərəfindən kiçik hədiyyələrlə təltif olunurlar.

Xalq şairi Məmməd Arazın 80 illik yubileyi ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasında şeir müsabiqəsinin keçirilməsi də  nəzərdə tutulmuşdur. Beləki, kitabxanaçı bir sıra məktəblərə  **"Azərbaycan deyiləndə ayağa dur ki..."**adlı  şeir müsabiqəsi haqqında elan verir.  Şeir Müsabiqəsinin keçirilməsində məqsəd oxucular arasında mütaliənin təbliği və onların bilik dairəsinin genişləndirilməsi, həmçinin istedadlı uşaqların aşkarlanmasından ibarətdir.  Şeir müsabiqəsi F.Köçərli adına Respublika Uşaq Kitabxanasının oxu zalında keçirilir. Bir neçə məktəb bu müsabiqədə iştirak edə bilər.  Müsabiqənin şərtləri ilə kitabxanaçı oxucuları tanış edir. Bu müsabiqədə yaxşı şeir demək , şeiri duymaq bacarığı olan istedadlı oxucular juri tərəfindən müəyyənləşdirilib 1, 2, 3, 4, 5 yerlər arasında sıralanırlar.  Müsabiqədə Məmməd Arazın " Azərbaycan", "Vətən"  haqqında qələmə aldığı bir çox şeirləri məsələn, "Azərbaycan dünyam mənim", "Ana yurdum hər daşına üz qoyum", "Vətən mənə oğul desə...", "Vətənsiz məhəbbət" və s. şeirləri səslənə bilər. İndi isə  oxucuların ifasında Məmməd Arazın **"Vətən!-Desin!** adlı şeirini dinləyək.

**I oxucu:** Bu gün gərək
Hər anımız Vətən!-desin.
Vətən!-desin
Təzminimiz, gümanımız,
Vətən-desin!
Ölənlərin əvəzinə
Qalanımız-Vətən!- desin.
Vətən!,-desin!
Qəlbimizin hər duyğusu,
hər vurğusu
Vətən!-desin.
Fərqi yoxdur, harda olaq
Zamanımız, məkanımız
Vətən!-desin!
Çox yatdıq, çox mürgülədik,
Qoca millət!
Mürgülədik: qoşa-qoşa

Dağlarımız oğurlandı,
Çaylarımız, göllərimiz oğurlandı.
Oğurlatdıq!
Düzlərimiz, çöllərimiz oğurlandı.
Oğurlatdıq!
İndi saysaq saya sığmaz,
Daha nələr, nələr oğurlanıb.
Yer üstündə xəzinələr,
Yer altında dəfinələr
Oğurlanıb!
Qoca millət, hər andımız,
amanımız,
Əgər varsa,
Zərrə qədər imanımız,
İmanımız-Vətən!-desin.
Hər yaxşımız, yamanımız
Vətən!-desin!

**II oxucu:** Bu nə səsdi, nə hənirdi
Vətən deyir,
O, Xocalı harayıdı,
O, Xocalı dərdidi
Vətən deyir.
Xəndəklərdə dəfn olunmuş
Əsir qoca Vətən deyir.
Əli kəsik,
dili kəsik
Uşaqlar var-hələ dustaq,
Körpə dustaq, Vətən!-deyir.
Bu nə külək, bu nə bulud,
Bu nə yağış, bu nə qardı?
Didərginlər üzərində
Susub durdu.
Vətən-dedi!
Mürgüləsən, qoca millət:
Daha möhkəm, daha ötkəm
gəlsin səsin,
Vətən!-desin!
Qoca millət, Bu gün gərək
Hər anımız Vətən!-desin.

Şeir müsabiqəsinin sonunda qaliblər müdriyyət tərəfindən mükafatlandırılırlar.

Vətənpərvərlik duyğuları ilə zəngin Məmməd Araz yaradıcılığı Azərbaycan poeziyasının parlaq səhifələrindən birini təşkil edir. Şairin yüksək bədii-fəlsəfi ümumiləşdirmələrlə səciyyələnən, lakonik deyim tərzinə malik dərin ictimai məzmunlu lirikası gücünü vətən təbiətinin gözəlliklərindən, böyük tarixi

keçmişimizdən və milli ədəbi fikrin tükənməz xəzinəsindən almışdır. Ana dilinin bütün incəliklərini özündə toplamış bu poetik irs gəncliyin mədəni-mənəvi dəyərlərə ehtiram ruhunda formalaşdırılması baxımından müstəsna əhəmiyyətə malikdir.

Elə bu baxımdan Məmməd Araz yaradıcılığına gəlin bir daha müraciət edək. F.Köçərli adına Respublika Uşaq kitabxanasında keçirilən tədbirlərin içərisində ən maraqlı və yaddaqalan tədbirlərdən biri də ədəbi-bədii gecə və ya poeziya gecəsidir. Belə bir tədbir müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn, **“Poeziyamızın xan çinarı”** adlı ədəbi-bədii gecəyə kitabxanaçı bir ay qabaqcadan hazırlaşır. Kitabxanaçı tədbirə bir çox şair və yazıçılarla yanaşı ədəbiyyat müəllimlərini, kitabxanaçıları və Məmməd Arazın qızı İradə Tuncay və onun həyat yoldaşı Aqil Abbası dəvət edə bilər. Tədbirin ədəbi hissəsi çıxış və məruzələrlə başlanır. Bədii hissədə isə Məmməd Arazın bir çox şeirlərindən parçalar və onun sözlərinə yazılmış mahnılar səsləndirilir. Səhnə gül dəstələri ilə bəzədilir. Xalq şairi Məmməd Arazın portreti səhnənin divarından asılır. Ulu öndər Heydər Əliyevin Məmməd Araz haqqında söylədiyi sitat səhnənin divarında yer alır.



***Xalq şairi Məmməd Araz dövrümüzün sənət zirvəsində durur.***

***Ulu öndər***
***Heydər Əliyev***

*Aparıcılar səhnəyə daxil olur Həmid Abbasın “Yaşasın Məmməd” adlı şeirini söyləyirlər.*

*Kim deyir baharın günləri azdır,*
*Təqvimdə qış ayı, qəlbimdə, yazdır.*
*Önümdə dayanan Məmməd Arazdır.*
*Çalışaq bu gözəl sənət yaşasın,*
*Məmmədi qoruyaq, Məmməd yaşasın!*

*Hansı insan bu hikmətə vurulmaz,*
*Hansı ürək bu çeşmədən durulmaz.*
*Dodaqlar pıçıldar, gözlər yorulmaz*

*Bu nadir nemətə qalmayaq həsrət,*
*Məmmədi qoruyaq, nadirdir Məmməd!*

*Hərdən qəribsəyib, kövrələndə biz,*
*Ən uzaq yollara qovuşanda iz.*
*Əsəndə əl-ayaq, qarışanda üz,*
*Qoy çatsın imdada, çatsın bu sənət.*
*Məmmədi qoruyaq, imdaddır Məmməd!*

*Bu sərvət, bu nemət Allahdan vergi,*
*Göydə axtarmayaq, yerdədir sərgi.*
*Büdrəmə qardaşım, anbaan bərki*
*Yaz, yazan əlini sağaltsın zəhmət,*
*Yazıb-yaratdıqca ucalır Məmməd.*

***I Aparıcı:*** Bütün yaradıcılığı boyu sözə bir varlıq kimi baxıb, ona səmimi yanaşan **"Ürəyimsiz kəlmə yazan deyiləm, nə qədər ki, öz əlimdir yazanım"** deyən Məmməd Araz bəlkə ona görədir ki, poeziya ümmanında nəhənglərin ön cərgəsindədir. Yaradıcı adamlar Məmməd Arazı hisslər, duyğular, sevgilər şairi adlandırırlar. Amma haqlı olaraq onu daha çox vətəndaş şairi kimi tanıyırıq. Məmməd Araz deyəndə özümüzdən asılı olmayaraq qeyri-ixtiyari **"Vətən mənə oğul desə nə dərdim, mamır olub qayasında bitərdim"-** deyə pıçıldayırıq. Vətənə layiqli övlad olmağın ən vacibliyini düşünürük. Məmməd Araz misraları daim bizə müəllimlik edib, örnək olub.

***Azərbaycan-mayası nur, qayəsi nur ki,***
***Hər daşından alov dilli ox ola bilər.***
***Azərbaycan deyəndə ayağa dur ki,***
***Füzulinin ürəyinə toxuna bilər.***

Bu sadəcə olaraq gözəl, poetik deyimlər deyil, şairin vətənə, Azərbaycan poeziyasına özünün hörmətlə yanaşması, eyni zamnda oxucunu buna sövq etməsidir. Məmməd Araz şeirləri bir vətəndaşlıq məktəbidir və o məktəbə baş vuran hər kəs xalqımıza, dilimizə, ölkəmizə böyük bir məhəbbət hissi tapır özündə.

***Vətən sevgisində birinci ada,***
***Birinci çatmağa pay yetər mənə,***
***Burda birincilik: Vətən yolunda,***

***Birinci ölməyi öyrədər mənə.***

***II aparıcı:*** Məmməd Arazda sevgi tamamilə fərqlidir. Məmməd Arazın sevgisinin kökündə yalnız və yalnız Vətən dayanır. Şair Vətənin adi bir daşını da, adi bir çiçəyini də, bir udum havasını da, bir içim suyunu da, ağacdan düşmüş bir yarpağını da elə canlandırır, elə təsvir edir və onlara elə bir sevgi ilə yanaşır ki, o daş da, o çiçək də, o ağacdan düşən yarpaq da ruhumuza çiçək, yarpaq, su kimi deyil, bir Vətən kimi hopur.

***Qayaların harayını,***
***Qayalara yazdım deyə,***
***Bəlkə Vətən sanar məni,***
***Bir balaca vətən daşı,***
***Vətən daşı olmayandan***
***Olmaz ölkə vətəndaşı!***

Şairin ən böyük dərdi, şairin ən böyük ağrısı Araz dərdi, Araz ağrısıdır. O Araz ki, Azərbaycanı iki yerə bölüb. Və yüz illərdir ki, bu xalqın bir arzusu var, o da birləşmək arzusu! Şair də bu arzu ilə yaşayıb elə məhz ona görə də özünə "Araz" təxəllüsü götürübmüş.

*Oxucular səhnəyə daxil olur. Məmməd Arazın "Oxucuya məktub" adlı şeirini söyləyirlər.*

***I Oxucu:***

***Uzaqdan-uzağa xoşuna gəlsəm,***
***Məni dindirməyə tələsmə hələ.***
***Tanımaq istəsən məni, əzəl sən***
***Tanış ol bu kiçik nəğmələrimlə.***

***Onda məhəbbətim, onda nifrətim***
***Əllə varaqlanar, gözlə oxunar,***
***Orda həm ürəkdən gülmək adətim,***
***Həm üzdən kədərli görünməyim var.***

***Birdən təbəssümüm aldadar səni,***
***Ehtiram naminə üzünə gülləm.***
***Bəlkə ürəyimdən gəlib keçəni***
***Gülüşlə, baxışla açan deyiləm.***

***Məni şeirimdə gəz bir insan kimi,***
***Qəlbimdə nə varsa, ona demişəm;***
***Anadan-bacıdan gizlətdiyimi***
***Kağızdan, qələmdən gizlətməmişəm...***

***I aparıcı:*** Göründüyü kimi, xalq şairi Məmməd Araz Azərbaycan ədəbiyyatında görkəmli, sanballı xidmətləri olan qüdrətli milli şairimizdir. Azərbaycan xalqının tarixi taleyi, milli özünəməxsusluğu, keşməkeşli mübarizəsi, milli dirçəlişimizin bu günü və sabahı onun yaradıcılığının əsas nüvəsini təşkil edir.

Böyük ədəbiyyat, həqiqi şeir-sənət artıq Məmməd Arazın tale ortağıdır. Bu böyük və müdrik sənətin şərəfli və məsuliyyətli yükünü ədəbiyyatımızın böyük idealları ilə səsləşən Məmməd Araz ideallarını ayrılıqda bir şair deyil və ya ümumiyyətlə qələm əhli yox, sözün geniş mənasında bütöv Vətən əhli çəkib daşıyır. Bu isə öz növbəsində xalq şairi Məmməd Arazın mənəvi zənginliyə, daxili saflığa, millilik və vətəndaşlığa, habelə müstəqilliyimizin daha da möhkəmləndirilməsinə aparan böyük, mağistral yolun əsas, güclü poetik lokomotivi olması deməkdir. Milli yüklü həmin şeir-sənət, ədəbiyyat qatarı təkcə öz müəllifini deyil, bütövlükdə xalqımızı XXI əsrə aparır.

Əziz tədbir iştirakçıları! Xalq şairi Məmməd Arazın yaşamaq və yaratmaq haqqı Azərbaycan xalqına və milli ədəbiyyatımıza yalnız və yalnız həmişə ucalıq gətirmişdi. Məmməd Araz keçmişi də, bugünü də düşünəndə ona yalnız şair qəlbi ilə yox, təfəkkür gözü ilə baxır, Vətənin hər zərrəsində məna axtarırdı. Onun hadisələrə bədii-fəlsəfi baxışı həmişə aparıcı mövqedə durmuşdu. Zaman keçdikcə bu səmimi hisslər daha dərin mənalarla ümumiləşdirilib orijinal, ardıcıl və sistemli poetik obrazlarla ifadə edilərək, “Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı”qənaəti ilə yekunlaşdırılır.

***II aparıcı:*** Məmməd Araz sənətə gəldiyi gündən xalq onu əsl şair kimi sevib qəbul etmişdir. Öz əsərləri ilə Azərbaycan poeziyasına yeni ruh gətirən, onun inkişafına təkan verən Məmməd Arazın şeirləri hansı ictimai-siyasi quruluşda yaranmasından asılı olmayaraq onlar həqiqi sənət əsərləri, poetik kəşflərlə, xalq məsəlini andıran aforizmlərlə, obrazlı poetik nümunələrlə zəngin əsl poeziya nümunələridir.

***Yazmışam hər şeyi könül naməmə,***
***Bircə bu günahım bağışlanacaq.***
***Neylədim Vətəni sevmək naminə,***
***Ucaltmaq naminə elədim ancaq!***

Ustad şairimiz xalqın görən gözü, düşünən beyni oldu və qılıncdan kəsərli qələmi ilə Azərbaycan ədəbiyyatında “Vətən poeziyasını” həm güldürən, həm ağladan söz dünyasını yaratmağı bacardı və oxucularını bu söz dünyasının əbədi qonaqlarına çevirdi.

***Şeirinin hər sətri sevgi-məhəbbət,***
***Bu elə-obaya qayğı, sədaqət.***

***Məmmədtək oğlu var, xoşbəxtdir millət.***
***İstəsək düşmənə niftət yaşasın,***
***Məmmədi qoruyaq, Məmməd yaşasın!***

Görkəmli sənətkarımız hər zamankı kimi ümumxalq məhəbbəti ilə yanaşı, müstəqil dövlətimizin də yüksək diqqət və qayğısı ilə əhatə olunmuşdur. Elmimizin və mədəniyyətimizin ardıcıl qayğıkeşi, ulu öndər Heydər Əliyev və onun davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalq şairi Məmməd Arazın sənəti və şəxsiyyətinə həmişə böyük hörmət bəsləmişdir. Elə bu hörmət və qayğının təzahürüdür ki, hörmətli prezidentimiz xalq şairi Məmməd Araz yaradıcılığına yüksək qiymət vermiş, onun 80 illik yubileyi ilə bağlı sərəncam imzalamışdır. Bu sərəncamdan irəli gələn məsələlər dövlət səviyyəsində yerinə yetirilməkdə davam edir.

Azərbaycan poeziya kəhkəşanında parlaq ulduz kimi yanan Məmməd Araz poeziyası həmişəyaşardır və bənzərsiz bir ömür yaşayan şairin şeir-sənət dünyası daimi olaraq yaddaşlarda yaşayacaqdır.

## Ə D Ə B İ Y Y A T   Sİ Y A H I S I:

1. Araz M. Seçilmiş əsərlər. Dörd cilddə.-B.: "Ozan", 2003.-347 s.
2. Araz M. Seçilmiş əsərləri. İki cilddə.-B.: "Lider Nəşriyyat", 2004.-223 s.
3. Araz M. Seçilmiş əsərləri. B.: Çaşıoğlu, 2004.-384 s.
4. Araz M. Araz axır.-B.: Azərnəşr, 1964.-75 s.
5. Araz M. Atamın kitabı.-B.: Gənclik, 1974.-168 s.
6. Araz M. Daş harayı.-B.: Yazıçı, 1992.-256 s.
7. Araz M. Dünya sənin, dünya mənim.-B.: Yazıçı, 1983.-310 s.
8. Araz M. Oxucuya məktub.-B.: Gənclik, 1978.-232 s.
9. Araz M. Vətən deyin.-B.: "Adiloğlu", 2003.-150 s.

## H A Q Q I N D A

1. Ağayar S. Bu da belə bir ömürdü, yaşadım!-B.: Panarama, 1998.-15 oktyabr.
2. Əzizxanlı Q. Sonuncu qorumdan od qalamışam.-B.: Xalq qəzeti, 1999.-10 avqust.
3. Əbülfəzqızı S. Gözəlliyə, kamilliyə səsləyən poeziya.-B.: Panarama, 1997.-31 dekabr.
4. Nəsib D. Adilikdə təzəlik.-B.: Ədəbiyyat qəzeti, 1998.-30 oktyabr.